Ali məktəb tələbələrinin ekspert fəaliyyətinə hazırlanmasının elmi-pedaqoji və təcrübi əsasları

Nigar Muradova

Müəllif:
Nigar Muradova — pedaqogika üzrə fəlsəfə doktoru, dosent, Azərbaycan Respublikasının Təhsil İnstitutunun aparıcı elmi işçisi. Azərbaycan, Bakı.
E-mail: rita-nigar@mail.ru

Annotasiya. «Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası»nda üçüncü strateji istiqamət təhsildə nəticələrə görə cavabdeh, şəffaf və səmərəli idarəetmə mexanizmlərinin yaradılmasını nəzərdə tutur. Bu baxımdan, ölkədə müasir təhsilin tələblərinə cavab verən təhsil müəssisələrində, xüsusən ali təhsil müəssisələrində tələbələrin müstəqil işinin təşkilində, elmi-tədqiqat fəaliyyətinin tənzimlənməsində pedaqoji ekspertiza ilə bağlı bilik və bacarıqlar mühüm əhəmiyyət kəsb edir. Pedaqoji ekspertizaya aid olan bilik və bacarıqlar təlim-tərbiyə sisteminin tərkib hissəsini təşkil edir. Onun mexanizmi müəllim və tələbələr arasında ekspert fəaliyyəti üçün qarşılıqlı əlaqə yaradır. Beləliklə, təhsilalanlar və müəllimlər arasında qarşılıqlı, sistemli fəaliyyət üçün zəmin hazırlanır. Ona görə də tələbələrin ekspert fəaliyyətinə hazırlanması modelinin işlənməsi məqsədəuyğundur. Həmin modelə də Təhsil Strategiyasındakı üçüncü istiqamət uyğun gəlir. Ekspert fəaliyyəti nəticəyönlüdür. Təcrübə göstərir ki, tələbələrin müstəqil iş sahəsində müxtəlif, kiçik elmi-tədqiqat layihələri onların ekspert biliklərini, məntiqini inkişaf etdirir, buraxılan səhvlər və nöqsanların aradan qaldırılması yollarına aydınlıq gətirir, düzgün və obyektiv nəticə hazırlamaq bacarığı formalaşdırır. Bu məqalədə sual-cavab üsulunda tələbələrin ekspert fəaliyyətinə hazırlanması üzrə modelin elmi-pedaqoji əsasları əks olunur. Müasir nöqteyi-nəzərdən modelin mahiyyəti və effektivliyi ali məktəbdaxili pedaqoji ekspert xidmətini təşkil edir. Bu iş sistemi məqsədyönlüdür, o nəinki tələbələrdə ekspert fəaliyyətinə maraq yaradır, həm də pedaqoji prosesin təkmilləşdirilməsi və ali təhsilin keyfiyyət səviyyəsinin daim yüksəldilməsini təmin edir.

Açar sözlər:
Ekspert fəaliyyəti, ali məktəb tələbələri, model, elmi-pedaqoji əsaslar.

DOI: 10.32906/AJES/683.2018.02.13

Məqaləyə istinad: Muradova N. (2018) *Ali məktəb tələbələrinin ekspert fəaliyyətinə hazırlanmasının elmi-pedaqoji və təcrübi əsasları*. «Azərbaycan məktəbi». № 3 (684), səh. 59–69

Məqalə tarixçəsi
Göndərilib: 08.09.2018; Qəbul edilib: 12.10.2018

Scientific, pedagogical and practical bases for the preparation of high school students for expert activities

Nigar Muradova

Author:
Nigar Muradova,
PhD in pedagogy,
assistant-professor,
Institute of Education of Azerbaijan Republic,
Leading Researcher Fellow at the Department of Educational Theory.
Azerbaijan, Baku.
E-mail: rita-nigar@mail.ru

Keywords:
Expert activity, students of higher schools, model, scientific and pedagogical basis.

Abstract. The third direction, proposed by the State Strategy for the Development of Education in the Republic of Azerbaijan, is to meet the requirements of modern education in the country, especially in the independent work of students in higher education institutions, the expert activity, which has a specific focus on raising the level of scientific research as, is a goal. It is important for high school students to have expert service support in expert activity development in this regard, the need on modernization of education. Such a sphere constitutes an integral part of the training and education system and serves to control the various educational problems of a common purpose. Its mechanism creates interaction and influence as an expert between teachers and students, thus creating a systematic interaction between educators and teachers. In this regard, it is advisable to develop a model «Preparing students for expert activities» in this context. This model is presented as a «Responsible, transparent and efficient mechanism system for learning outcomes» in the third direction of the adopted Education Strategy. Expert activity is result-oriented. Expert develops logic from the point of small research projects of students in the field of independent work, and clarifies the ways in which the errors are solved and forms the ability to formulate a correct and objective result. In this article, the scientific-pedagogical bases of the model for the preparation of higher education students to expert activity are presented in the question and answer method. From the contemporary perspective, the essence and effectiveness of the model make up the high school-based pedagogical expert. The system of its work is purposeful, what makes students interested in expert activities, as well as improving the pedagogical process and the continuous improvement of the quality of higher education.

DOI: 10.32906/AJES/683.2018.02.13

To cite this article: Muradova N. (2018) *Scientific, pedagogical and practical bases for the preparation of high school students for expert activities.* Azerbaijan Journal of Educational Studies. Vol. 684, Issue III, pp. 59–69
Article history
Received: 08.09.2018; Accepted: 12.10.2018

Müasir dövrdə respublikamızın təhsil sistemində qloballaşma prosesi sürətlənir, ölkələrarası əlaqələr genişlənir, qabaqcıl dünya təcrübəsi öyrənilərək tətbiq edilir. Bu baxımdan «Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası» mühüm əhəmiyyət kəsb edir. Bu sənədin üçüncü strateji istiqaməti təhsildə nəticələrə görə cavabdeh, şəffaf və səmərəli idarəetmə mexanizmlərinin yaradılmasıdır. Bu istiqamət ali məktəb tələbələrinin ekspert fəaliyyətinə cəlb olunması ideyasını daha da aktuallaşdırır. Ona görə də ali məktəblərdə təlim prosesində tələbələrin ekspert fəaliyyətinin müstəqil inkişaf etdirilməsi vacib məsələlərdəndir. «Azərbaycan təhsili müasir zamanın inkişaf meyillərini özündə cəmləməklə inkişaf edir. Qlobal dünyanın tələbləri ölkəmizin təhsil sisteminin daha da inkişaf edərək modern bir məzmun və forma kəsb etməsini qarşıya qoyur. ... Bu məqsədə nail olmaq üçün optimal modelin işlənməsi xüsusi didaktik vəzifə kimi araşdırmaların aparılmasını tələb edir» [Abbasov Ə.M. 2016].

Bundan başqa, bu məsələ ilə əlaqədar respublikanın ali məktəblərində əsas problem tələbələrin ekspert fəaliyyəti ilə bağlı təsəvvürlərin, məlumatların yetərincə olmamasıdır. Onlar bu suallara cavab tapmaqda çətinlik çəkirlər: pedaqoji ekspert fəaliyyəti nədir, pedaqoji ekspert kimdir və onu seçməkdə hansı meyarlar əsas götürülməlidir, ekspert fəaliyyətində tələbələr nələri bilməli və bacarmalıdırlar, təhsilalanlar öz nailiyyətlərini necə qiymətləndirməlidirlər və s. Belə bir problemin aktuallığını nəzərə alaraq ali təhsil müəssisələrində tələbələrin ekspert fəaliyyəti üçün şəraitin yaradılmaması və bu sahədə müstəqil tədqiqat təcrübəsi mühitinin olmaması baxımından modelin işlənməsi məqsədəuyğun hal kimi dəyərləndirilir.

Öncə qeyd edək ki, xarici ədəbiyyatlarda pedaqoji ekspert fəaliyyəti, tələbələrdə özünüekspertiza haqqında fəlsəfi, sosioloji-psixoloji, nəzəri-metodik və praktik cəhətdən geniş məlumatlar var. Azərbaycanda isə bu sahədə bir sıra məqalə və tezislər nəşr olunmuşdur: Tədqiqatın öyrənilmə səviyyəsi üzrə (Y.Ş.Kərimov, Ə.Ə.Ağayev, H.H.Əhmədov, F.A.Rüstəmov, E.B.Bəylərov, İ.A.Cavadov və b.); Ekspertiza zamanı ekspert tərəfindən yol verilən nöqsanlar və onların aradan qaldırılması yolları (A.N.Abbasov və b.); Tədris proqramı çərçivəsində qiymətləndirmə problemləri (E.M.Abbasov və b.); Fənn tədrisində biliklərin qiymətləndirilməsi (İ.H.Cəbrayılov və b.); Təhsil sahəsində tədqiqat aparma üsulları (R.T.Qəndilov və b.). Bununla belə Azərbaycan təhsilində pedaqoji ekspert fəaliyyətinin ümumi təsvirinin təqdim olunmaması və pedaqoji ekspertə ehtiyac olması elmi cəhətdən əsaslandırılmamışdır. Digər tərəfdən, ali təhsil müəssisələrində tələbələr üçün ekspert fəaliyyəti üzrə elmi-metodik vəsait yoxdur. Həm dövlət sənədləri, həm də pedaqoji ədəbiyyatların təhlili elmi-pedaqoji amillər olaraq mövzunun aktuallığını təsdiqləyir. Ekspert fəaliyyəti pedaqogika elminin müasir problemlərindəndir və respublikamızın ali təhsil müəssisələrində tələbələrin nailiyyətlərinin yüksəldilməsində xüsusi əhəmiyyətə malikdir. Təcrübə göstərir ki, tələbələrin bu istiqamətdə fəaliyyətini stimullaşdırmaq üçün ekspert modelinin yaradılması mühüm şərtdir. Bu modelin əsas vəzifəsi tədqiqat fəaliyyətində tələbələrdə ekspert biliklərinin, vərdişlərinin və bacarıqlarının inkişafı üçün həm sosioloji-psixoloji, həm də elmi-pedaqoji imkanlar yaratmaqdır.

Bu məqalədə sual-cavab üsulunda ali məktəb tələbələrinin ekspert fəaliyyətinə hazırlanması üzrə modelin elmi-pedaqoji əsasları həm nəzəri, həm də praktik baxımdan əks olunur. Nəzəri baxımdan ekspert fəaliyyətinin pedaqoji əsasları nəzəri-praktik materiallar kimi müəyyənləşdirilir və ali təhsil müəssisələrində istifadə edilməsi tövsiyə olunur. Praktik baxımdan isə ali məktəb tələbələrinə müstəqil tədqiqat sahəsində müntəzəm təhlilə kömək edir, onları bir ekspert kimi formalaşdırır, bu sahədəki bacarıqlarını inkişaf etdirir. Pedaqoji ekspert fəaliyyətinin keyfiyyəti ekspertin peşəkarlığından asılıdır. Bu baxımdan təhsildə dəqiq qiymətləndirmənin aparılması da ekspert fəaliyyətinin düzgün təşkili ilə bağlıdır.

Cədvəl 1. **Pedaqoji ekspertin ən əsas səciyyəvi xüsusiyyəti təhsildə obyektiv və düzgün qiymətləndirmənin sabitliyinin qorunmasıdır**

Pedaqoji ekspertin səciyyəvi xüsusiyyəti. *Mənbə: [Новикова Т.Г. Москва, 2006]*	
1. **Peşəkar ekspertin səriştəlilik meyarları**	2. **Peşəkar ekspertin etiket qaydaları**
• ekspertizanın veriləcəyi məsələlərdə yüksək peşəkarlıq səviyyəsi; • ekspert fəaliyyətində prosedurlara ciddi yanaşma; • qiymətləndirmə nəticələrinin təhlili; • öz fikirini müdafiə bacarığı və ona əsasən mübahisə etmək qabiliyyəti; • pedaqoji prosesin öyrənilməsi və ətraflı dərk edilməsi; • müəyyən bir pedaqoji prosesin güclü və zəif tərəflərinin müəyyən edilməsi.	• şəxsi keyfiyyətləri: dürüstlük, doğruluq, səmimiyyət; • ünsiyyət bacarıqları; • yüksək kommunikasiya mədəniyyəti; • münaqişə vəziyyətlərini həll etmək bacarığı; • ekspert etibarlılığını və nüfuzunu artırmaq.

Sual: Pedaqoji ekspert peşəkarlığının səciyyəvi xüsusiyyətləri nə ilə təyin olunur və onlar hansılardır?

Cavab: Pedaqoji ekspert peşəkarlığının iki səciyyəvi xüsusiyyəti var. Onlar *cədvəl 1*-də əks olunub.

Sual: Pedaqoji ekspert kimdir?

Cavab: Pedaqoji ekspert ekspertizada iştirak edən, müəyyən bir sahədə xüsusi təcrübəyə malik müvafiq ixtisasda zəruri biliklərə sahib olan, sözügedən obyektlə bağlı məsələlər üzrə qüsursuz məsləhətlər, obyektiv qiymət verən və davranış qaydalarına riayət edən səlahiyyətli şəxsdir. [Новикова Т.Г. Москва, 2006].

Sual: Ali təhsil müəssisələrində pedaqoji ekspertin seçilməsinə tələblər hansılardır?

Cavab: Ali təhsil müəssisələrində pedaqoji ekspertin seçilməsinə tələblər bunlardır:

• Ekspert profilli təhsil;
• Akademik dərəcə;
• Vəzifə;
• Profilli təhsilin iş təcrübəsi;
• Bu istiqamətdə nəşrlərin sayı;
• Ekspert rəylərinin sayı;
• Ekspert qiymətləndirilməsinin səriştəlilik səviyyəsi. [Игнатьева О.А. Москва, 2013].

Sual: Ekspert hansı pedaqoji əsaslarla təyin edilir?

Cavab: Pedaqoji ekspert, əsasən, beş pedaqoji əsasla təyin olunur:

• ekspertin səlahiyyətinə malik olmaq üçün müraciətin təqdim edilməsi;
• sənədlərin ilkin müayinəsi;
• ərizəçinin ixtisasının qiymətləndirilməsi;
• ekspertin səlahiyyətinə dair qərarın qəbul edilməsi;
• ekspertin siyahısının saxlanılması.

[Игнатьева О.А. Москва, 2013].

Sual: Pedaqoji ekspert fəaliyyəti nədir?

Cavab: Pedaqoji ekspert fəaliyyəti xüsusi bir ekspert-analitik fəaliyyət növüdür, ekspertdən ekspertiza aparılan obyekt və predmet haqqında səciyyəvi bilik, peşə bacarığı və intuisiya qabiliyyəti tələb edir. Bütün bunları istifadə edərək ekspert prosedurlarda kifayət qədər sübutlara əsaslanır və obyektiv nəticə, rəy təqdim edir. Ekspert fəaliyyəti həm də mütəmadi olaraq mütəxəssisin qrupdakı digər şəxslərlə qarşılıqlı əlaqədə olduğu bir fəaliyyət növüdür. [Новикова Т.Г. Москва, 2006].

Sual: Ekspert fəaliyyətinin vacib metodoloji əsasları hansılardır?

Cavab: Ekspert fəaliyyətində iki metodoloji əsas mütləqdir. Onlar *cədvəl 2*-də əks olunub. Ekspertin metodoloji məsələlərinin spesifikliyi ondan ibarətdir ki, dəqiq bir mövzunun həlli üçün həm xüsusi bilik, həm də davranış etikası tələb olunur.

Sual: Ekspert fəaliyyətinin əsas funksiyaları hansılardır?

Cavab: Ekspert fəaliyyətinin əsas funksiyaları bunlardır: tədqiqat aparmaq; qiymətləndirmə; nəzarət; proqnozlaşdırma; formalaşdırma; modelləşdirmə; diaqnostika; dəstəkləmə; layihələşdirmə; konstruktorlaşdırma. [Новикова Т.Г. Москва, 2006].

Cədvəl 2. **Pedaqoji ekspertin fəaliyyətində vacib metodoloji əsaslar**

1. **Əsas prinsiplərə riayət etmək**	2. **Ekspert metodlarını tanımaq**
• qiymətləndirmənin obyektivliyi; • qərəzsizlik; • ekspertiza meyarlarının və peşəkar etika qaydalarının qavranması və onların qəbul edilməsi.	• fərdi ekspert qiymətləndirilməsi metodu; • morfoloji ekspert metodu; • reytinq metodu — ekspert üsulu kimi müəyyən edilir; • özünüqiymətləndirmə metodu; • pedaqoji konsulium metodu və s.

Cədvəl 3. **Ekspert fəaliyyətinin məhsuldar təşkili və keçirilməsi üçün ekspert üç vacib ekspertiza funksiyasını yerinə yetirməlidir**

Üç əsas ekspert funksiyaları. *Mənbə: [Новикова Т.Г. Москва, 2006]*		
Ekspert bilməlidir:		
Obyekt (nəyin qiymətləndirildiyi məlum olmalıdır)	**Meyarlar** (qiymətləndirmə xüsusiyyətləri müəyyən edilməlidir)	**Prosedurlar** (qiymətləndirilmə vasitələri mövcud olmalıdır)

Cədvəl 4. **Ekspert fəaliyyətinin bəzi prosedurları**



Cədvəl 5. **Ekspert fəaliyyətində tələbə-ekspertdən tələb olunan əsas məntiqi düşüncələr**

Ekspert fəaliyyətində ekspertin məntiqi düşüncələri		
Deduksiya və induksiya əsasında analitik düşüncələr	İntuisiya fikirləri	Nəticə çıxarmaq

Ekspert fəaliyyətinin məhsuldar təşkili və keçirilməsi üçün ekspert üç vacib ekspertiza funksiyasını yerinə yetirməlidir (Cədvəl 3).

Ekspert fəaliyyəti müxtəlif prosedurlardan ibarətdir. Onlardan bəziləri *cədvəl 4*-də əks olunub. Tələbə bir ekspert kimi praktik bacarıqlarını inkişaf etdirir, tədqiqat işinin həm nəzəri, həm də praktiki nəticələrini ortaya qoyur, mövzuya uyğun olaraq hər hansı bir fərziyyə irəli sürür və s.

Qeyd edək ki, ekspert fəaliyyətində ekspertin məntiqi düşüncələri zəruridir. Həmin məntiqi düşüncələr *cədvəl 5*-də öz əksini tapıb. Tələbə bir ekspert kimi əqli fəaliyyət priyomlarını müəyyənləşdirir, elmi-tədqiqat işində ekspert biliyini inkişaf etdirir.

Cədvəl 6. **Ekspert fəaliyyətinin əsas etiket qaydaları**

Ekspert mədəniyyətinin əsasları	Ekspert fəaliyyətinə digər şəxslərlə əlaqə zamanı qoyulan tələblər	
Davranış; Ünsiyyət; Danışmaq; Öz nöqteyi-nəzərini ifadə etmək; Öz elmi mövqeyini qorumaq; Opponent kimi başqasının mövqeyini müdafiə etmək; Xarici görünüş	Diqqətlə qulaq asmaq	Başqalarının rəyinə hörmət etmək
	Sual verə bilmək bacarığı	Verilən reaksiyaları düzgün qiymətləndirmək qabiliyyəti
	Emosionallıqdan uzaq olmaq	Tənqidi səbrlə dinləmək bacarığı

Cədvəl 7. **Ali məktəb tələbələrinin təlim prosesində ekspert fəaliyyətinin səmərəli inkişafı üç əsas pedaqoji strategiyaya əsaslanır**

Pedaqoji strategiyaların istiqamətləri modelin konsepsiya əsasları kimi		
1. **Əməkdaşlıq strategiyası** (müəllim və tələbə + ekspert-mütəxəssis)	2. **Qiymətləndirmə strategiyası**	3. **Təlim strategiyası**

Cədvəl 8. **Tələbələrin elmi-pedaqoji praktikasında ekspert fəaliyyəti üçün zəruri olan üç mühit**

Hazırlıq mühiti	Təcrübə mühiti	Təqdimat mühiti
Tələbənin özünü ekspert fəaliyyətində sınamaq üçün hazırlığını xarakterizə edir	Tələbənin müstəqil iş sahəsində ekspert bacarıqlarını xarakterizə edir	Tələbənin ekspert fəaliyyətinin nəticələrini təqdim etməyə hazır olduğunu xarakterizə edir

Ekspert fəaliyyətində mədəni davranış amili bir sosio-psixoloji parametr kimi əsas sayılır. «Bu baxımdan elmi-pedaqoji araşdırmalar aparan tədqiqatçıların şəxsi keyfiyyətlərinə də xüsusi tələblər qoyulur: dünyagörüşünə malik olması, tədqiq edəcəyi sahəni mükəmməl bilməsi, obyektiv və ədalətli olması, şəxsi hislərə qapılmaması, ünsiyyət qurmağı bacarması, tədqiqat apardığı zaman proseslərə müdaxilə etməməsi, tədqiqat nəticələrini elmi cəhətdən əsaslandırması və digər zəruri keyfiyyətləri özündə əks etdirməsi vacibdir» [Cəbrayılov İ.H. 2016].

Tələbənin ekspert fəaliyyətində nəzərə almalı olduğu sosio-psixoloji xüsusiyyətlər *cədvəl 6*-da əks olunub. Ekspert fəaliyyəti spesifikliyi, xüsusən davranış mədəniyyəti ilə fərqlənir. Bununla bağlı tələbələrin ekspert fəaliyyətinin səmərəli inkişafına şərait yaradan mədəniyyət tələblərini bilmək vacibdır.

Ali məktəb tələbələrinin pedaqoji strategiya əsasında yaradılan ekspert fəaliyyətinə hazırlanması modeli *cədvəl 7*-də əks olunub.

Haqqında bəhs etdiyimiz modelin mexanizminin mahiyyəti və effektivliyi aşağıdakı kimidir:

• tələbələrin müstəqil işinə xidmət edir;


• ekspert bacarıqları üzrə nəticələrin yüksəldilməsini daim nəzarətdə saxlayır;

• özünüekspertizaya məhsuldar şərait və yeni imkanlar yaradır;

• tələbələrin ekspert fəaliyyətində inkişafın dinamikasını təmin edir;

Tələbələrin elmi-pedaqoji praktikasında ekspert fəaliyyəti üçün zəruri olan üç mühit *cədvəl 8*-də qeyd olunub.

Cədvəl 9. **Təlim prosesinin subyektlərinin münasibətləri (rəhbərlik, təhsilalanlar, valideynlər, məktəbdaxili ekspert-mütəxəssis) «əks-əlaqə» prinsipi əsasında qurulub**



Cədvəl 10. **«Refleksli esse» forması.** *Mənbə: [Бузальская Е. В. Москва, 2015]*

Essenin məzmunu	Essenin strukturu və planı
• Refleksiya tələbələrə yalnız işin həyata keçirilməsinə kömək etmək deyil, həm də məntiqi bir zəncir qurmaq, əldə olunmuş təcrübənin sistemləşdirilməsi, digər tələbələrin uğurları ilə müqayisə etməkdir. • Bu, tələbələrə dərsdə öz işinin effektivliyini qiymətləndirməyə imkan verir.	• Essenin strukturu ona tətbiq edilən tələblər ilə müəyyən edilir. • Məruzədə tələbələrin problemlə bağlı fikirləri qısa tezis (**T**) şəklində təqdim edilir. • Bu fikirləri sübutlarla təsdiqləyir və bunların əsasında tezisin arqumentlərini (**A**) təqdim edirlər. • Beləliklə, tələbələr essenin quruluşunu müəyyənləşdirirlər (tezislər və arqumentlərin sayı mövzudan, seçilmiş plandan, düşüncə məntiqindən asılıdır).

Bu modeldə tələbələrin ekspert fəaliyyətinə hazırlığı pedaqoji prosesin «Əks-əlaqə» prinsipi əsasında qurulub və onun məhsuldarlığı ekspert-xidmət dəstəyi ilə təşkil olunur. Beləliklə, tələbə bir ekspert kimi müstəqil iş sahəsində özünü inkişaf etdirmək və ekspert fəaliyyətinə hazırlamaq imkanı qazanır. Bundan başqa, «müəllim və tələbələrin birgə fəaliyyəti zamanı subyektlərarası münasibətlərin fəallaşdırılması, təlim prosesində subyekt-obyekt və obyekt-subyekt münasibətlərinin qarşılıqlı surətdə bərqərar olması son nəticədə subyekt-subyekt münasibətlərinə gətirib çıxarır» [Məmmədli L.A. 2014]. Bu deyilənlər cədvəl-9-da öz əksini tapıb.

Beləliklə, tələbə ekspert kimi «bir müstəqil işi təhlil edərkən, motivləri və məqsədi görməli, onların əsasında fəaliyyət göstərməli, aşkar olan qüsurları müəyyənləşdirməli və müstəqil işin daha əlverişli qurulmasını layihə kimi təqdim etməlidir» [Abbasov A.N. 2010].

Sual: «Refleksli esse» formasının məzmunu, strukturu və planı təxminən necədir?

Cavab: «Refleksli esse» formasının modeli *cədvəl 10*-da əks olunub. Bu model tələbələrin təşəbbüskarlığının, müstəqilliyinin, yaradıcı

Cədvəl 11. **«Ekspert şərhləri» rəqabət oyunu**

Ekspertin məntiqi səviyyələri	**«Bir cümləyə əsaslanan mənim ekspert şərhlərim» modeli üzrə tələbə-ekspertin məntiqi nəticələri**
Bilik	Təklifin xarakterini (xüsusiyyətləri) müəyyənləşdirir
Anlayış	Cümlənin fərqli xüsusiyyətlərini söz və intonasiya baxımından izah edir
Tətbiq	İfadə və intonasiya məqsədi ilə cümlələr qurulur
Təhlil	Cümlənin intonasiyasına təsir edən amilləri müəyyənləşdirir
Sintez	Söz və intonasiya məqsədi ilə cümlə dəyişdirilir
Qiymətləndirmə	Təklif və onun növləri haqqında kiçik bir təqdimat təqdim edir

Cədvəl 12. **Müzakirə zamanı tələbələr cıxış edirlər. Çıxışlar əsasında onlar tədqiqatın elmi səviyyəsini müəyyənləşdirirlər.**

Tələbə-ekspertin digər tələbə-ekspertlərlə kiçik tədqiqat işinin müzakirəsi		
Suallar (öyrədici, korreksiyaedici)	Cavablar (doğru, yanlış və tamamlanmamış)	Çıxışlar (tövsiyə xarakterli müxtəlif fikirlər)
Qeyd: *Bütövlükdə tövsiyə xarakterli fikirlər tədqiqat məzmununda olan qüsurların aradan götürülməsi üçündür*		

imkanlarının inkişafına kömək edir.

Essenin planı vacibdir, ona görə ki, «plan fikri intizamlaşdırır, materialın sistemlə, məntiqi ardıcıllıqla şərhinə şərait yaradır, fikirlərin lakonik izahına kömək edir» [Həsənov F., Ağayev Ə. 2007].

Sual: «Ekspert şərhləri» rəqabət oyunu modelinin mahiyyəti nədən ibarətdir?

Cavab: «Ekspert şərhləri» rəqabət oyunu modelinin mahiyyəti *cədvəl 11*-də əks olunub. Rəqabət oyunu məntiqi cəhətdən məqsədyönlüdür, o, tələbədə ekspert biliklərinin keyfiyyətinə səmərəli təsir göstərir.

Pedaqoji ekspertiza baxımından elmi-tədqiqat sahəsində olan meyarlara uyğun cədvəli təqdim edirik (Cədvəl 12).

Çıxışlar suallardan yaranır ki, bu da tələbələrin ekspert təfəkkürünü inkişaf etdirir. Bununla belə, düşünürük ki, tələbələrin ekspert fəaliyyətinə hazırlanmasında mini-modellərin istifadəsi daha məqsədəuyğun olardı. *Cədvəl 13*-də bunun nümunəsini təqdim edirik.

Bu cədvəli təhlil edərkən belə bir ümumiləşdirilmiş elmi-nəzəri nəticəyə əsaslana bilərik ki, ali məktəb tələbələrinin ekspert fəaliyyətinə hazrlanmasında mini-modellərin tətbiqi məqsədyönlüdür. Tələbə bu zaman bir ekspert kimi mövcud olan problemlərin həllində müasir metod və yanaşmalardan istifadə edir, didaktik materialları müəyyənləşdirir, nəzəri anlayışları tənqidi qiymətləndirir, elmi məlumatlarla işləməyi bacarır, kiçik bir tədqiqatın nəticələrini şərh və təhlil edir.

Qeyd edək ki, müstəqil iş sahəsində tələbə «ekspert kimi hər hansı bir didaktik sistemi və onun inteqrativ variantı üzrə danışmağı (məlumat verməyi) və hətta nümayiş dərsi aparmağı» [Abbasov A.N. 2010] öyrənir. Məsələn:

• Tələbələrin auditoriyadankənar müstəqil işi.

Cədvəl 13. **Mini-modellərin məzmununun mahiyyəti. Hər bir model elmi cəhətdən məqsədyönlüdür, o, tələbələrdə ekspert motivasiyasını formalaşdırır.**

Mini-modellər. *Mənbə: [Санникова Л.Н. Магнитогорск, 2005; Гареева Г.Н. Владикавказ, 2013]*	
Modellərin mövzuları	**Modellərin məqsədləri və vəzifələri**
Elmi işlə bağlı suallar	Sual sayına görə (Niyə? Necə izah etmək olar? Nəyə görə? Hansı şəkildə?) tələbələrin elmi-tədqiqat işində ekspert düşüncəsi müəyyən olunur. Sorğu-sualların siyahısı ilə tələbələrdə ekspert-tədqiqatçı biliyi formalaşır və ekspert fəaliyyəti inkişaf edir.
İş oyunu: «Mən ekspertəm»	Oyunun bu formasının istifadəsi bir rol yanaşması kimi hesab olunur. Tələbələri tədqiqat fəaliyyətində ekspert biliklərinin inkişafına yönəldir və onlara müstəqil ekspert kimi iştirak etməyə şərait yaradır, bu istiqamətdə özüöyrənmə prosesini həyata keçirir. Burada hər bir tələbə eyni vəzifə daşıyır. Vəzifənin növündən asılı olaraq işin nəticəsi yoxlanmaq üçün bir elmi metodistə təqdim edilə bilər.
Situasiya məsələlərinin həlli	Situasiya məsələləri, intellektual əməliyyatlar informasiya ilə işləmə prosesində mütəmadi olaraq tələbələri inkişaf etdirməyə imkan verir: tanış olmaq, yəni vəziyyətə bələd olmaq; anlamaq; tətbiq etmək; təhlil etmək; sintez və interpretasiya etmək; qiymətləndirmək. Situasiya məsələlərinin spesifikliyi praktikyönlü xarakter daşıyır və mahiyyəti ondan ibarətdir ki, onlar dəqiq bir mövzu ilə bağlıdır, onu həll etmək üçün xüsusi bilik tələb edir. Situasiya vəzifənin vacib elementi — problemli bir sual, məsələdir, o, mürəkkəb bir şəkildə tərtib olunur, buna baxmayaraq tələbə ona cavab tapmaq istəyir.
Kiçik tədqiqat	Elmi metodist tələbələri kiçik bir tədqiqat mövzusunun doğru seçiminə, onun üsul və vasitələrinin müəyyənləşdirilməsinə istiqamətləndirir. Mövzu nəzəri də, praktiki də ola bilər. Burada tələbə seçilmiş mövzuya uyğun olaraq hər hansı bir fərziyyə irəli sürür. Bu və ya başqa bir mövzunu seçərkən, tələbə aşağıdakı suallara cavab verməlidir: — Mənim üçün ən maraqlı nədir? — Əvvəlcə nə etmək istəyirəm? — Daha çox hansı elmi məlumatı bilmək istəyirəm və onu necə öyrənə bilərəm? Bu sualları cavablandırmaqla, o , tədqiqat mövzuları arasında əlaqə yaratmaq məqsədilə elmi metodistdən məsləhət ala bilər.

• Tələbələrin auditoriyada müstəqil işi.

• Tələbələrin yaradıcılıq, tədqiqat xarakterli müstəqil işi.

«Ali məktəb gənclərə hazır biliklər verməkdən daha cox «bilikləri əldə etmək» yollarını öyrətməlidir» [Rüstəmov F.A., Dadaşova T.Y. 2007]. Bu səbəbdən, tələbənin müstəqil iş sahəsində ekspert bacarıqlarını sınamaq üçün sadə bir tapşırıqdan daha mürəkkəb bir tapşırığa keçmək məqsədəuyğundur. Məsələn:

• öyrənilən mövzularda əyani vəsaitlərin hazırlanması;

• mühazirə, seminar, praktik və laboratoriya dərslərinə hazırlıq;

• məqalələrin təqdimatı;

• mühazirələr və seminarlarda müzakirə olunmayan problemlərin qeyd edilməsi;

• yoxlama işlərini yerinə yetirmək;

• testlərin hazırlanmasında tələbələrin iştirakı;

• tədqiqat və yaradıcı tapşırıqların yerinə yetirilməsi;

• kurs və diplom işlərinin yazılması və təhlili;

• «Dəyirmi masa» çərçivəsində mövzuların müstəqil öyrənilməsi və s.

Cədvəl 14. **Məqalənin yeniliyi, nəzəri və praktik əhəmiyyəti**

Məqalənin yeniliyi	Məqalənin nəzəri əhəmiyyəti	Məqalənin praktik əhəmiyyəti
Respublikamızda ali məktəb tələbələrinin müstəqil işinin keyfiyyətini yüksəltmək üçün «Tələbələrin ekspert fəaliyyətinə hazırlanması» modelinin əhəmiyyəti	Pedaqoji ekspert fəaliyyətinin metodoloji əsasları, nəzəri-praktik materiallar kimi müəyyənləşdirilməsi və ali təhsil müəssisələrində istifadə olunması	Ekspert fəaliyyəti ali məktəb tələbələrinə elmi-tədqiqat işində müntəzəm təhlilə kömək edir, onları bir ekspert kimi formalaşdırır, ekspert bacarıqlarını inkişaf etdirir.

Qeyd edək ki, hazırda respublikamızın ali təhsil sistemində tələbələrin bilik və bacarıqlarının inkişafı sahəsində yüksək səviyyəli standartlara nail olunması üçün müstəqil işlərə geniş yer verilir. Məsələn, bir neçə əlavə təhsil mühitinə diqqət yetirək:

• ADA-da elmi-tədqiqat və tədris mərkəzi «Big data» mühiti (məqsəd: milli analitik mütəxəssislərin hazırlanması).

• «Sabah» layihəsində məntiqli düşünən və informasiyaları təhlil etməyi bacaran mütəxəssislər hazırlanması.

• Xəzər Universitetində universitetdaxili tədqiqatlar aparmaq (məqsəd: tənqidi və analitik düşünən mütəxəssislər hazırlamaq) və s.

Yuxarıda şərh edilən elmi-pedaqoji əsasları yekunlaşdırarkən həm nəzəri, həm də praktik baxımdan ali məktəb tələbələrinin ekspert fəaliyyətinə hazırlanması ilə bağlı belə ümumi nəticəyə gəlmək olar:

a) ekspert fəaliyyəti keyfiyyət və kəmiyyət göstəricilərinin müqayisəsinin, ümumiləşdirilməsi və mücərrədləşdirilməsinin nəticəsidir və bu əməliyyatlar bir-biri ilə vəhdətdədir;

b) ekspert fəaliyyəti tələbələrin özünə təsir göstərməkdir, özünütəlimə istiqamətləndirmək və motivləşdirmək məqsədilə istifadə etdiyi güclü vasitədir;

c) «Ali məktəb tələbələrinin ekspert fəaliyyətinə hazırlanması modeli» tələbədə öz tədqiqat fəaliyyətinə, özünüqiymətləndirmə və onun nəticələrinə tənqidi münasibət formalaşdırır.

Məqalənin mahiyyətini *cədvəl 14*-də qeyd etdiyimiz nəzəri və praktik əhəmiyyətindən də görmək mümkündür. Mövzuya əsasən məqalənin istiqaməti «Ali pedaqoji təhsildə ekspert fəaliyyəti», problemi isə «ali təhsil müəssisələrində tələbələrin müstəqil işinin optimallaşdırılması»dır.

İstifadə edilmiş ədəbiyyat

1. Abbasov A.N. Pedaqogika: orta ixtisas məktəbləri üçün dərs vəsaiti. (2010). Bakı: Mütərcim, 344 s.
2. Abbasov Ə.M. (2016). Ümumi təhsil standartlarının psixopedaqoji xüsusiyyətlərinə dair // Kurikulum, № 4, Bakı: CBS mətbəəsi, səh. 5-10.
3. Cəbrayılov İ.H. «Azərbaycanda təhsil siyasətinin prioritetləri: müasir yanaşmalar» (2016). Beynəlxalq eimi konfransın materialları. Naxçıvan şəhəri. Bakı: Təhsil Texnologiyaları Mərkəzinin nəşriyyatı, səh. 22-23.
4. Həsənov F., Ağayev Ə. (2007). Pedaqogika (Dərslik). Bakı, «Nasir» nəşriyyatı. 296 s.
5. Məmmədli L.A. Tələbələrin idrak fəallığının inkişaf etdirilməsi yolları. (2014). Pedaqogika üzrə fəlsəfə doktoru dissertasiyasının avtoreferatı, Bakı: «Mütərcim» Nəşriyyat-Poliqrafiya Mərkəzi, 26 s.
6. Rüstəmov F.A., Dadaşova T.Y. (2007). Ali məktəb pedaqogikası (Magistratura pilləsi üçün dərslik). Bakı, «NURLAN». 568 s.
7. Аскольская Е.А. Некоторые аспекты методики отбора экспертов на основе оценки степени доверия к уровню

профессионального суждения (2010) // Известия Оренбургского государственного аграрного университета, № 4 (28), с. 170-172
8. Бузальская Е. В. (2015) Эссе к истории становления жанра // Мир русского слова № 2.
9. Валеев Г.Х. (2006) Экспертиза научных исследований в сфере социогуманитарного знания // Педагогика, №5, с.23-29.
10. Гареева Г.Н. Формирование компетенции экспертной оценки образовательной среды у студентов магистратуры. (2013). Автореферат диссерта¬ции кандидата педагогических наук. Владикавказ: «Северо-Осетинский государственный университет им. К.Л. Хетагурова», 22 с.
11. Жигалев Б. А. (2011) Сущность оценочной экспертизы в области качества профессионального образования в вузе // Высшее образование в России, № 3, с. 58-62.
12. Иванов Д.А. (2008) Экспертиза в образовании: учебное пособие для студентов высш. пед. учеб. завед. Москва: Академия. 329 с.
13. Иванов Д.А. (2011) Экспертиза экспериментальной и инновационной деятельности в образовании. М.: Изд-во УЦ «Перспектива», с. 202.
14. Иванченко Г. В., Леонтьева Д. А. (2006). Экспертиза в современном мире: от знания к деятельности. Москва: «Смысл», 454 с.
15. Игнатьева О.А. Институт экспертизы как предмет научных исследований: социологический аспект (2013) // История и социально-образовательная мысль. Москва: выпуск 6, с.125-127.
16. Кучер С. (2008) Идеальный эксперт в образовании // Народное образование, № 5, с.102-107.
17. Лобок А. (2007) Модель института профессиональной экспертизы педагогической инноватики // Школьные технологии, № 5, с. 69-78.
18. Мотова Г.Н., Наводнов В.Г. (2008.) Экспертиза качества образования: европейский подход. Москва: Национальное аккредитационное агентство в сфере образования, 100 с.
19. Новикова Т.Г. Эксперт по инновационной деятельности в образова¬нии: качества, способы отбора // Пед. диагностика, 2006, №3, с. 26-43.
20. Прусак А.И. (2006) Актуальное требование к экспертам в сфере образования: мудрость // Школьные технологии, №5, с. 161-165.
21. Самигуллина Г., Багавиев И. (2007) Экспертиза работы учителя: что должен и чего не должен делать эксперт // Директор школы, № 8, с.47-52.
22. Санникова Л.Н. (2005). Подготовка студентов вуза к экспертизе обра¬зовательного процесса дошкольного учреждения: диссертация кандидата педагогических наук. Магнитогорск, 179 с.
23. Семаго М.М. (2005). Экспертная деятельность психолога образовательного учреждения. Метод. Пособие, 2-е изд. Москва: Айрис-Пресс, 128 с.
24. Умняшова И.Б. (2017) К вопросу о профессиональной этике специа-листов, осуществляющих психолого-педагогическую экспертизу в сфере образования // Вестник практической психологии образования. № 3, с. 25-29.
25. Умняшова И.Б., Сафуанов Ф.С. (2017) Модель психолого-педагогичес¬кой экспертизы в системе образования // Психологическая наука и образование. Том. 22, № 4, с. 75–83.
26. Шургина С.А. (2006) Организация экспертизы инновационной деятельности в образовании // Справочник руководителя образовательного учрежде¬ния. М., № 8, с. 22-30.
27. Aybek B.; A. Serkan (2016) An Analysis of the Units «I'm Learning my Past» and «The Place where We Live» in the Social Studies Textbook Related to Critical Thinking Standards. Eurasian Journal of educational research, Issue: 65, Pages: 35-54
28. Grosslight L; Unger C; JAY E. (1991) Understanding models and their use in science-conceptions of middle and high-school-students and experts. Journal of Research In Science Teaching, Volume: 28, Issue: 9, Pages: 799-822.